UOT 37. 01

***Püstəxanım Məmmədkərim qızı Balayeva***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi*

# ALİ MƏKTƏBDƏ TƏLİM-TƏRBİYƏ İŞİNİN TƏŞKİLİ İSTİQAMƏTLƏRİ

***Пюстаханум Мамедкерим гызы Балаева***
*старший преподаватель*
*Азербайджанского Государственного Педагогического Университета*

# НАПРАВЛЕНИЯ ОРГАНИЗАЦИИ УЧЕБНО-ВОСПИТАТЕЛЬНЫХ РАБОТ В ВУЗАХ

***Pustahanum Mammadkarim Balaeva***
*senior teacher of Azerbaijan State Pedagogical University*

# DİRECTİONS OF THE ORGANİZATİON OF EDUCATİONAL WORK İN UNİVERSİTİES

**Xülasə:** Ali məktəbdə tələbənin və onun mənəvi dəyərlərinin, bütövlükdə isə şəxsiyyətinin maksimum inkişaf etməsində böyük əhəmiyyət kəsb edən təlim-tərbiyənin mahiyyətinə və onun təşkili istiqamətlərinə aydınlıq gətirilir.
***Açar sözləri:*** *ali məktəb, dəyərlər, tələbə şəxsiyyəti, tərbiyə prosesi, pedaqoji təcrübə, ixtisas*

**Резюме:** Важность обучения и образования в высшей школе имеет решающее значение для максимизации развития студента и его духовных ценностей, а также для формирования его личности.
***Ключевые слова:*** *высшая школа, ценности, личность студента, воспитательный процесс, педагогический опыт, специальность*

**Summary:** The essence of discipline and its organization which has great importance and the student's moral values, and the development ol the identity of the student as a whole is clarified at higher school.
***Key words:*** *higher school, values, student identity, education process, pedagogical experience, specialty*

Ali məktəb mühiti ümumbəşəri və milli dəyərlərə uyğun olaraq şəxsiyyətin tələbatları və maraqlarına istiqamətlənir. Burada tərbiyə işinin əsas hədəfi tərbiyəvi işin maksimal nəticələrinə, tərbiyə prosesinin başlıca məqsədlərinə nail olmaqdır. O. Əfəndi yazır: "Ali məktəbdə tərbiyə işi, tələbə şəxsiyyətinin maksimum inkişafını təmin etməklə, ali təhsilin mütəxəssis üçün zəruri olan keyfiyyətlərin formalaşdırılması prosesidir."

Beləliklə, ali məktəb sosio-mədəni mühiti formalaşdırır, şəxsiyyətin hərtərəfli inkişafına, tələbə özünüidarəetməsinin, təhsilalanların ictimai təşkilatlar, idman və yaradıcı klublar, tələbə elmi cəmiyyət və birliklərinin fəaliyyəti də daxil olmaqla tədris prosesinin sosial tərbiyəvi komponentinin inkişafına imkan yaradır.

Hazırda ali məktəbdə tələbə gənclərlə təlim-tərbiyə işinin təşkili mənəviyyat, dövlətçilik, vətənpərvərlik, kollektivçilik, mərhəmətlilik, qarşılıqlı yardım, xeyriyyəçilik kimi ənənəvi dəyərlərlə yanaşı, təşəbbüskarlıq, kreativlik, tolerantlıq, tədbirlilik kimi yeni dəyərlərə söykənərək həyata keçirilir. Tərbiyə prosesinin məzmunu tələbə gənclərin şəxsi və peşəkar inkişafı üçün əlverişli şəraitin yaradılmasına, peşəkar və ümummədəni kompetensiyaların formalaşması, ali məktəb məzunlarının mənəviyyat, vətənpərvərlik, vətəndaşlıq, zəhmətsevərlik, məsuliyyətlilik, mütəşəkkillik, müstəqillik, təşəbbüskarlıq, intizamlılıq, özünü müdafiə etmə bacarığı, sağlam həyat tərzi və mədəni dəyərlərə sədaqət kimi şəxsi keyfiyyətlərinin formalaşmasına istiqa-

mətlənmişdir. Məhz bu səbəbdən də müasir gəncliyin tərbiyəsində ali məktəbdə təlim-tərbiyə işinin idarə olunmasının təşkili istiqamətlərinin düzgün müəyyən olunması önəmlidir.

Tələbə gənclərlə tərbiyə işinin təşkili şəxsiyyətin mütəxəssis və vətəndaş kimi formalaşması prosesi, onların özünüinkişafı və özünüaktuallaşdırması üçün şəraitin yaradılması deməkdir. Z.Müslümov yazır: ”Müsbət ənənələri ilə tanınan ali məktəblər, buradakı tələbə kollektivi, düzgün qurulmuş professor-müəllim və tələbə münasibətləri, təhsil-tərbiyə imkanlarına malik imkanlar açır.”

Ali məktəbdə təlim-tərbiyə işinin mahiyyəti nədən ibarət ola bilər? Bu suala cavab tapmaq daim inkişafda olan cəmiyyətimizdə çox çətindir. Çünki cəmiyyət inkişaf etdikcə təlim və tərbiyə anlayışının mahiyyəti də getdikcə genişlənir. Əgər ali məktəbdə tərbiyə işindən söhbət gedirsə, onu deyə bilərik ki, tərbiyə işi, tələbənin və onun mənəvi dəyərlərinin, bütövlükdə isə şəxsiyyətinin maksimum inkişaf etməsini həyata keçirməklə, ali təhsilli şəxs üçün lazım olan keyfiyyət və dəyərlərin formalaşdırılması prosesidir. Tələbənin tərbiyəsindən danışarkən, yaxud da onun tərbiyəsi nədən ibarətdir deyərkən, ilk növbədə, onun dünyagörüşü, qabiliyyətləri, şüurluluğu, məsuliyyət hissi, intizamlılığı, özünütənqid və özünütərbiyəsi, özünüdərk və özünüidarəetməsi, adamlarla işləmə bacarığı və digər ona xas olan keyfiyyətlərini inkişaf etdirmək məqsədilə onun psixologiyasına, fəaliyyət və davranışına edilən məqsədli təsirlər başa düşülür. Lakin bu təsirləri nə zaman etmək lazımdır? Tələbə şəxsiyyəti bu təsirlərə hazırdırmı? Deməli, tələbə şəxsiyyətinə yönələn bu təsirləri həyata keçirməkdən ötrü, ilk növbədə, hər bir tələbənin şəxsi-psixoloji keyfiyyətini, tələbatını, marağını, psixoloji xüsusiyyətlərini bilmək olduqca vacibdir. Yaddan çıxarmaq olmaz ki, hər bir şəxsi dəyərin formalaşmasının mənbəyi müəyyən bir hadisə və yaxud da faktlardan asılıdır. Ona görə də, bu və ya digər dəyərin formalaşmasını, sadəcə olaraq, bilik, bacarıq və vərdişlərin inkişaf etdirilməsi kimi başa düşmək düzgün olmazdı. Bununla bərabər, həm də müstəqilliyin və sərbəstliyin, bir sözlə, motivlərin inkişaf etdirilməsi, gerçəkliyə münasibətin dəyişməsi, zəruri olan psixoloji vəziyyətlərin yaradılması, tələbənin özünə xas xüsusiyyətləri və inkişaf zamanı ziddiyyətlərin nəzərə alınması olduqca önəmlidir. Bundan əlavə onu da qeyd etməliyik ki, ali məktəbdə tərbiyənin prinsiplərini ümumtəhsil məktəblərində tərbiyənin prinsipləri ilə eyniləşdirmək olmaz. Çünki, ali məktəbdə bu prinsiplərlə yanaşı xüsusi prinsiplər də mövcuddur. Bunlara biz tələbənin yaş, sosial, psixoloji və fərdi xüsusiyyətlərinin nəzərə alınması, onların tərbiyəsinin ictimai-istehsalat və elmi-tədqiqatçılıq fəaliyyəti ilə əlaqələndirilməsi, tərbiyənin peşə-ixtisas istiqamətli olması, onların ali məktəb təhsilindən sonrakı praktik fəaliyyətə hazırlanması prinsiplərini də aid edə bilərik. O. Əfəndi belə hesab edir ki, tələbələrin yaş xüsusiyyətləri ilə hesablaşmamaq mümkün deyildir. O, öz fikrini belə izah edir:

”Birinci kurs tələbələrində şəxsi ləyaqət hissinin çox yüksək olması və əksinə, əxlaqi xüsusiyyətlərin birtərəfli olması özünü büruzə verir. Bu yaşa dərrakəli olmaq, məntiqli olmaq xasdır. Bu isə onların tərbiyəsinə müəllimlərin həssas yanaşmasını tələb edir.“

Ali məktəbdə pedaqoji təcrübənin və təlim-tərbiyə işinin təkmilləşdirilməsində imkanlar genişdir. Belə ki, pedaqoji təcrübə yalnız elmi məlumatların və biliklərlə əlaqədar olan konkret bacarıqların inkişaf etdirilməsinə xidmət göstərmir. Bundan başqa, pedaqoji təcrübə tələbələrin əmək və peşə tərbiyəsində mühüm rola malikdir. N.Kazımovun qənaətinə görə, “işgüzarlıq, əməksevərlik, əməyə məhəbbət, əməyi planlaşdırmaq, iş yerində səliqə-sahman yaratmaq, qarşıya çıxan çətinlikləri yox etmək və digər bu kimi mənəvi keyfiyyətlərin formalaşmasında pedaqoji təcrübənin imkanları genişdir.“

A.Abbasov yazır: ”Müəllim hazırlığı həm nəzəri, həm də praktik istiqamətləri nəzərdə tutur. Sinif otağında şagirdlərlə üz-üzə dayanan, onları bilik və bacarıqlarla, həyatda lazım olacaq zəruri vərdişlərlə silahlandırmağı qarşısına məqsəd qoyan pedaqoji peşə sahibi təkcə sevdiyi ixtisasa, ümumpedaqoji hazırlığa, xüsusi hazırlığa dair nəzəri məlumatlara və biliklərə malik olmamalı, həm də praktik bacarıqlara, metodik hazırlığa, pedaqoji ustalığa yiyələnməlidir.”

Tələbələrin elmi işləri də ali məktəbin tədris və tərbiyə prosesinin zəruri tərkib hissəsidir. O. Əfəndi yazır: ”Tədqiqatçılıq fəaliyyəti tələbədə təşəbbüskarlıq, müstəqillik və yaradıcılıq qabiliyyətlərinin inkişafı üçün daha əlverişli şə-

rait yaradır.” B. J. Bəşirovun qənaətinə görə, tələbə elmi işləri iki başlıca məqsəd daşımalıdır: 1. Gələcək mütəxəssisin ixtisas üzrə hazırlığını yaxşılaşdırmaq. 2. Tələbəni elmi, tənqidi təfəkkürə, təşəbbüskarlıq və tədqiqatçılıq təfəkkürünə yiyələnməyə alışdırmaq. Aydın məsələdir ki, tələbə elmlə məşğul olduqca bilik dairəsini və dünyagörüşünü inkişaf etdirir, təhsilini daha da artırır. Nəticə etibarilə tələbələri elmi tədqiqata qoşmağın ikinci məqsədi gələcək mütəxəssislərin tədqiqatçılıq təfəkkürünü formalaşdırmaqdan ibarətdir.

Yuxarıda qeyd etdiyimiz məqsədlərə nail olmaqdan ötrü isə tələbələrdə elmi işlərə dərin maraq oyadılmalı və onların bu sahədə fəaliyyətləri ardıcıl olaraq qiymətləndirilməlidir. Bu səbəbdən də ikinci kursdan başlayaraq ali məktəblərdə tələbə elmi işlərinin nəticəsini qiymətləndirmək və rəsmiləşdirmək lazımdır. Birinci kursda tələbə ixtisas fənlərindən tədqiqatçılıq işinin adi texnoloji prosesinə yiyələnir, ikinci kursda kafedra dərnəklərində fəal şəkildə iştirak edir, kiçik ölçülü mövzular üzərində ilkin tədqiqatlar aparır və çıxışlar edir.

Ali məktəbdə tələbələrin tərbiyə olunmasında tədris prosesində məsləhətlərin aparılmasının da böyük əhəmiyyəti vardır. Belə ki, tədrisin düzgün aparılması ardıcıl təşkil edilən məsləhətlərlə bağlıdır. Məsləhətlərin aparılmasında başlıca çatışmazlıq onun yalnız imtahanlarla bağlı olmasıdır. Amma məsləhətlər bütün tədris ilinin, hətta hər bir məşğələ və mühazirə materialını əhatə etməlidir. Burada çətinlik müəllimlərə ayrılan məsləhət saatı ilə də bağlıdır. Ümumiyyətlə, ali məktəbdə məsləhətin fərdi, qrup növləri vardır. Fərdi məsləhət, adətən, dərs buraxan, müstəqil işləmək bacarığı az olan, yaxud da müxtəlif tapşırıqları yerinə yetirən tələbələrə verilir. Hətta referat üzərində işləyən tələbələr də fərdi məsləhətə ehtiyac hiss edirlər. Fərdi məsləhətin də xüsusiyyətləri müxtəlifdir. Bu müxtəliflik isə tələbənin gəlmədiyi məşğələ saatlarının miqdarından və ümumi hazırlıq səviyyəsindən asılıdır. Müəllim yalnız məsləhətlə kifayətlənməməli, tələbələri suallara cavab tapmaq üçün müstəqil şəkildə axtarışa cəlb etməlidir. Qrup ilə məsləhətdə isə imtahan sessiyası ilə bağlı olaraq çətin bir məsələnin öyrənilməsindən sonra təşkil edilir. Məsləhət zamanı müəllim öz işinin qüsurlarını və uğurlu tərəflərini görür, tələbələr isə böyük ruh yüksəkliyi ilə yeni əməyə istiqamətləndirilir. O. Əfəndi yazır: ”Məsləhətlər ali təhsil müəssisələrində təlimin təşkilinin geniş yayılmış formalarıdır. Onlar tədris planına daxil olan fənlər üzrə tələbələrin müstəqil işlərinə məqsədəuyğun şəkildə istiqamət vermək üçün təşkil olunur.”

Məruzə etmək, referat işi, kurs və diplom işi ilə bağlı olan məsləhətdə tələbəyə mövzunun müəyyən edilməsi, məqsədi, planı və quruluşu ilə bağlı köməklik edilir. Ali məktəbdə tələbələrə müsbət təsir göstərən amillərdən biri də kollokviumdur. Onun əsas vəzifəsi tələbənin əvvəlki bilik və bacarıqlarını, yeni mövzu, yeni kurs, yaxud müvafiq laborator, praktik məşğələyə keçmək üçün nə dərəcədə hazır olmasını, habelə tələbənin mühazirə və seminarlarda aldığı məlumatı nə dərəcədə mənimsəməsini təyin etməkdir. Bundan əlavə, kollokvium tədris vəsaiti üzərində nə dərəcədə səmərəli şəkildə işləmələrini təyin etməyə imkan verir. Bu nöqteyi-nəzərdən kollokviumun keçirilməsi bütün tədris prosesinə, xüsusilə tələbələrin müstəqil işinə müsbət təsir edir.

**Problemin aktuallığı:** Ali məktəb mühiti ümumbəşəri və milli dəyərlərə uyğun olaraq şəxsiyyətin tələbatları və maraqlarına istiqamətlənir. Burada tərbiyə işinin əsas hədəfi tərbiyəvi işin maksimal nəticələrinə, tərbiyə prosesinin başlıca məqsədlərinə nail olmaqdır.

**Problemin elmi yeniliyi:** Ali məktəbdə təlim-tərbiyə işinin təşkili istiqamətləri araşdırılmışdır.

**Problemin tətbiqi əhəmiyyəti:** Elmi məqalədə istifadə olunan ideyalardan və nəzəri fikirlərdən ali məktəbdə təlim-tərbiyə işinin təşkili zamanı müxtəlif konfrans və tədbirlərin keçirilməsində istifadə oluna bilər.

## Ədəbiyyat:

1. Abbasov A. Pedaqoji təcrübə gələcək müəllimlərin peşəyə hazırlanmasının mühüm vasitəsi kimi // ARTPİ-nin Elmi əsərləri, 2014, № 4
2. Bəşirov B. Ali məktəb didaktikası. Bakı: Maarif, 1992.
3. Əfəndi O. Ali məktəb pedaqogikası kursu üzrə mühazirələr. Bakı: Azərbaycan Dövlət İqtisad Universiteti, 2010.

4. Əliyev P.B., Əhmədov H.H. Təhsil müəssisələrində tərbiyə işinin təşkili. Bakı: ABU, 2004.
5. Hacıyeva A. Tələbənin şəxsiyyət kimi formalaşması ali təhsil müəssisələrinin aktual problemi kimi // ARTPİ-nin Elmi əsərləri, 2016, № 1
6. Kazımov N. Ali məktəb pedaqogikası. Bakı: Çıraq, 2011.
7. Müslümov Z. Pedaqoji təmayüllü ali məktəb tələbələrinin mənəvi tərbiyəsi. Bakı: Azərbaycan Respublikası Təhsil Nazirliyi, 1996.

**E-mail**: balayeva52 @mail.ru
**Rəyçilər:** *ped.ü.fəls.dok.,dos.* **S.A. Orucova**
*ped.ü.fəls.dok.* **S.R. Hacıyeva**
**Redaksiyaya daxil olub:** 08.10.2018